Azərbaycan Respublikası təhsil nazirinin 1 may 2014-cü il tarixli 522 nömrəli əmri ilə “Ümumi təhsil müəssisələrində şagirdlərin sinifdən-sinfə keçirilməsi haqqında müvəqqəti Qaydalar” təsdiq edilmişdir. Həmin qaydaların 6-cı və 7-ci bəndlərinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq olunmuş “Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat”ın illik qiymətin çıxarılması ilə bağlı 4.14-cü bəndində müvafiq dəyişikliklərin edilməsinə ehtiyac yaranmışdır.

Qeyd olunanları nəzərə alaraq və “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. “Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat”ın 4.14-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“4.14. Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanır:”

2. İnformasiya şöbəsi (E.Əliyev) əmrin Rayon (Şəhər) Təhsil Şöbələrinə (İdarələrinə), Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinə çatdırılmasını, Nazirliyin internet saytında yerləşdirilməsini, “Azərbaycan müəllimi” qəzetində və “Təhsil xəbərləri” məcmuəsində dərc olunmasını təmin etsin.

Əsas: Təhsilin statistikası və keyfiyyətin qiymətləndirilməsi şöbəsinin müdiri İ.Sadıqovun 09.06.2014-cü il tarixli 2654 (t) nömrəli təqdimatı.

***Mikayıl Cabbarov,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***7 iyul 2014-cü il***

***№ 782***